**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№367/6** **30 iyul 2024-cü il**

**Auditorlar Palatasının üzvlərinin saytlarının monitorinqi və qiymətləndirilməsinin nəticəsi üzrə hazırlanmış hesabat barədə**

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.12-ci “Auditor xidməti sahəsində özünü reklam hallarının monitorinqinin aparılması və müvafiq təkliflərin hazırlanması” və 8.8-ci “Auditorlar Palatasının üzvlərinin saytlarının monitorinqi və qiymətləndirilməsi” bəndlərinə və Palata Şurasının 2022-ci il 14 aprel tarixli 343/6 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə”nin 22-ci maddəsinə əsasən Palata üzvlərinin veb-saytlarının monitorinqinin nəticəsinə dair hazırlanmış hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2024-cü ilin II rübü üzrə auditor təşkilatları və sərbəst auditorların veb-saytlarının monitorinqinin nəticəsinə dair hazırlanmış hesabat nəzərə alınsın (əlavə olunur).

2. Palatanın Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki:

2.1. Adları aşağıda qeyd olunan 19 auditor təşkilatlarının rəhbərlərinə öz veb-saytlarını Auditorlar Palatası Şurasının 2022-ci il 14 aprel tarixli 343/6 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə”nin 2-ci “Reklam qaydaları” bölməsinin 22-ci “İnternet tətbiqləri / proqramları” maddəsinə uyğun olaraq 1 ay müddətinə hazırlanması ilə bağlı xəbərdarlıq məktubu göndərilməsini təmin etsin:

- “ARGENTUM AUDİT” MMC (direktor - Əhmədbəyli Elturan Fizuli oğlu);
- “AUDİT.AZ" MMC (direktor - İslamov Adil Nüsrət oğlu);
- “AZAUDİT Consulting” MMC (direktor - Rəşidov Rəşad Rəşid oğlu);
- "BERC AUDİT" MMC (direktor - Rəsulzadə Elnur Cəsayil oğlu) ;
- “CAPİTAL AUDİT" MMC (direktor - Bəhmənov Elçin Yavər oğlu);
- "ENEM-AY AUDİT AND TAX" MMC (direktor - Dövlətov İlkin Abxan oğlu);
- "FAM GROUP AUDİT” MMC (direktor - Hüseynov Mirkazim Mirəyyar oğlu);
- “Forum”MMAM (direktor - Səttar Aydın Səttar oğlu);
- “FCHAİN AUDİT” MMC (direktor - Hüseynov Valid Əli oğlu);
- "GINZA AUDİT" MMC (direktor - Muxtarov Tunar Tahir oğlu);
- “HLB AUDİT” MMC (direktor - Əliyev Müşfiq Tofiq oğlu);
- “İDEOVATE CONSULTİNG” MMC (direktor - Namazova Nailə Abdulhüsyn qızı);
- “İntex Audit” MMC (direktor - Əliyev Ruhin Ramiz oğlu);

- “İNVEST Audit” MMC (direktor - Osmanlı Elnur Əjdər oğlu);
- “KPM Audit and Services” MMC (direktor - Zamanlı Rəvanə Ayaz qızı);
- "NET FINANCE” MMC (direktor - Əsgərov Aqşin Nəbi oğlu);
- “Prime Audit and Consulting” MMC (direktor - Hacızadə Anar Fuad oğlu);
- “PREMİUM-AUDİT” MMC (direktor - Kərimov Natiq İmran oğlu);
- “SAMADOV HÜQUQ VƏ AUDİT” MMC (direktor - Səmədov Ruzi Emin oğlu).

2.2. Qeyd edilən müddətdə veb-saytlarını “Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında Əsasnamə”nin müvafiq maddəsinə uyğun qurmayan auditor təşkilatları və sərbəst auditorlar barəsində Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə”yə əsasən müvafiq qaydada intizam və tənbeh tədbirləri görülməsi barədə təkliflərini təqdim etsin.

3. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**